

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 149 (21.301)

1 avqust 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Muxtar respublikanın nazirlik, komitə və təşkilatlarında cari ilin ilk 6 ayının yekunları müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə müəyyən olunmuş proqnoz 105,2 faiz icra edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 421 min 500 manat çoxdur. 1 iyul 2015-ci il tarixə muxtar respublikanın ticarət və iaşə obyektlərinə 130 ədəd POS-terminal quraşdırılıb, POS-terminallar vasitəsilə aparılan alqı-satqı əməliyyatları 8 milyon 130 min 561 manat təşkil edib.*

Bunları Vergilər Nazirliyində keçirilən kollegiya iclasında nazir, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Əli Mahmudov diqqətə çatdırıb.

Nazir bildirib ki, həyata keçirilən tədbirlər nəticəsində 1 iyul 2015-ci il tarixə muxtar respublika ərazisində fəaliyyət göstərən banklarda 44761 bank hesabı açılıb. Həmin bank hesablarından 41044 hesab, o cümlədən bu ilin ilk 6 ayı ərzində açılan 6511 hesab aktiv olub. Hesabat dövrü ərzində vergi ödəyiciləri tərəfindən 5866 bəyannamə təqdim edilib. Bu bəyannamələr uyğunsuzluq yoxlamasından keçirilərək 163 vergi ödəyicisinə kameral qaydada 10 min 68 manat əlavə hesablama aparılaraq ödənilməsi təmin edilib. 12 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına və 1623 fiziki şəxs sahibkarlıq qeydiyyatına alınıb. Həmin sahibkarlıq subyektlərinin 91,2 faizi muxtar respublikanın rayonlarının payına düşüb. Vergi nəzarəti tədbirləri çərçivəsində audit strukturları tərəfindən hesabat dövründə başa çatdırılan 86 səyyar vergi yoxlaması nəticəsində 36 min 400 manat əlavə vəsait hesablanıb, 19 min 300 manat maliyyə sanksiyası tətbiq edilib və tamamilə büdcəyə ödənilməsi təmin olunub.

Əli Mahmudov qeyd edib ki, vergitutma bazasının genişləndirilməsi və vergidən yayınma risklərinin azaldılması sahəsində görülən tədbirlərin nəticəsində öz əmlaklarını icarəyə verərək gəlir əldə edən 2153 fiziki şəxs tərəfindən 44 min 863 manat vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

2015-ci ilin birinci yarımilində yerli vergi orqanlarında qeydiyyatda olan 2743 işəgötürən fiziki şəxs tərəfindən büdcəyə 45 min 30 manat ödənilib.

Məruzə ətrafında çıxışlar olub.

* * *

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində 2015-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri Xalid İsgəndərov açaraq məruzə ilə çıxış etmişdir.*



Bildirilmişdir ki, dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında nazirliyin qarşısında konkret vəzifələr qoyulmuşdur. Həmin vəzifələrdən geniş bəhs edən nazir diqqətə çatdırmışdır ki, ötən müddətdə makroiqtisadi sabitliyin qorunması bütün sahələrdə muxtar respublikanın yüksək templə inkişafına şərait yaratmış, qazanılan uğurlar dövlət büdcəsinin gəlirlərinə də öz təsirini göstərmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2015-ci ilin birinci yarısında bütün mənbələr hesabına 31 milyon 733 min manat proqnoza qarşı 35 milyon 709 min 290 manat və ya 112,5 faiz icra olunmaqla, 3 milyon 976 min 290 manat artıq vəsait daxil olmuşdur. Hesabat dövründə büdcə daxilolmalarının 81,1 faizi və ya 28 milyon 970 min 980 manatı Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi, 16,1 faizi və ya 5 milyon 749 min 794 manatı Dövlət Gömrük Komitəsi, 2,8 faizi və ya 984 min 296 manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olmuş, 4 min 220 manatı isə digər daxilolmalar vasitəsilə təmin edilmişdir. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinin xərcləri 2015-ci ilin birinci yarısında 214 milyon 567 min 763 manat dürüst təyinata qarşı 176 milyon 563 min 457 manat və ya 82,3 faiz icra edilmişdir. Adıçəkilən dövrdə sosialyönümlü xərclərə büdcədən 86 milyon 474 min 525 manat vəsait yönəldilmişdir ki, bu da büdcə xərclərinin 49 faizini təşkil edir. Ümumilikdə, cari ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərclərinin 90,1 faizi və ya 159 milyon 87 min 990 manatı cari xərclər, 9,9 faizi və ya 17 milyon 475 min 467 manatı əsaslı xərclər olmuşdur.

Xalid İsgəndərov 2015-ci il büdcə ilinin uğurla başa çatdırılması üçün maliyyə orqanlarına verilən tapşırıqların vaxtında, dəqiq və layiqincə yerinə yetirilməsinin zəruriliyini vurğulamışdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilmişdir.

* * *



*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində bu ilin ilk yarımilinin yekunlarının müzakirə edildiyi kollegiya iclasında komitənin sədri Kamal Cəfərov məruzə edərək bildirib ki, komitə tərəfindən 10267 təsərrüfat subyektindən 24876 ədəd hesabat yığılıb.*

Komitə aparatının müvafiq şöbələri tərəfindən 23 adda, o cümlədən "1 yanvar 2015-ci il tarixə muxtar respublikada mal-qaranın sayı haqqında", "2014-cü ildə Naxçıvan Muxtar Respublikasının əsas demoqrafik göstəriciləri haqqında", "2014-cü ildə Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, mədəniyyət, pensiya təminatı və idmanın vəziyyəti haqqında", "2015-ci ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı haqqında" təhlili məruzələr hazırlanıb. Kənd təsərrüfatı sahəsi üzrə aktual məlumatların əldə edilməsi və dəqiq statistik uçotun aparılmasında kənd təsərrüfatının siyahıya alınması mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 fevral tarixli qərarına əsasən, 2015-ci ilin iyun ayının 1-dən 30-dək muxtar respublikada kənd təsərrüfatının siyahıya alınması keçirilib. Bir ay ərzində təsərrüfat subyektlərindən əldə olunmuş göstəricilərin hazırda elektron variantda işlənilməsi prosesi davam edir.

Statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan təsərrüfat subyektlərinin göstəricilərinin aktuallaşdırılması görülmüş tədbirlər nəticəsində nəzərdə tutulmuş vaxtda başa çatdırılıb. Statistik vahidlər dövlət reyestrində qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılıb, müvafiq göstəricilər dəqiqləşdirilib. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmayıb.

Sonra məruzə ətrafında çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin 2015-ci ilin birinci yarısının yekunlarına dair kollegiya iclasında məruzə ilə çıxış edən İqtisadiyyat və Sənaye naziri Famil Seyidov qeyd etmişdir ki, muxtar respublikamızda iqtisadi və sosial sahədə bütün makroiqtisadi göstəricilərin pozitiv meyilli yüksəlişi təmin olunmuş, 2015-ci ilin 6 ayı ərzində ümumi daxili məhsulun həcmi 2014-cü ilin müvafiq dövrünə nisbətən 5,5 faiz artaraq 1 milyard 87 milyon manat təşkil etmişdir.

Bildirilmişdir ki, cari ilin müvafiq dövründə kənd təsərrüfatı məhsulları istehsalı və emal sənayesini əhatə etməklə 28 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, yüngül, yeyinti sənayesi və tikinti materialları istehsalı ilə yanaşı, kənd təsərrüfatı və xidmət təyinatlı 47 yeni sahənin yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yeni qurulmuş müəssisələrdə istehsal olunan məhsulların növü 354-ə çatmış, 336 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2015-ci ilin ötən dövründə də sahibkarlığın inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla işgüzar görüşü, onlara göstərilən dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı verdiyi tapşırıqlar daha yüksək nailiyyətlərin əldə olunmasına şərait yaratmış, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizə çatmışdır.

2015-ci ildə kreditlərin verilməsi davam etdirilmiş və 20 layihənin maliyyələşdirilməsinə 7 milyon manat həcmində güzəştli kreditlər verilmişdir.

İxrac və investisiya imkanlarının təşviqi, sahibkarların biznes əlaqələrinin genişləndirilməsi və muxtar respublikada istehsal olunan məhsulların tanıdılması 2015-ci ilin ötən dövründə də davam etdirilmiş, ölkə daxilində və xaricdə keçirilən 14 tədbirdə 56 sahibkarın iştirakı təmin olunmuşdur.

Kollegiya iclasında işdə buraxılan nöqsan və çatışmazlıqlar da təhlil edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Sonda məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində 2015-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasını komitənin sədri Müslüm Cabbarzadə açaraq məruzə ilə çıxış etmişdir.*



Qeyd olunmuşdur ki, mülkiyyət hüquqlarının tənzimlənməsində vahid idarəçiliyi təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 may 2015-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılmış, eləcə də Ali Məclis Sədrinin 27 may 2015-ci il tarixli Fərmanı ilə komitənin əsasnaməsi təsdiq edilmişdir.

Komitə sədri bildirmişdir ki, sahibkarların girov predmetinə yönəldilmiş əmlaklarının real bazar dəyərinə uyğun qiymətləndirilməsi komitənin müvafiq struktur bölməsinin mütəxəssisləri tərəfindən həyata keçirilmişdir. Bu günədək bununla əlaqədar 38 müraciətə baxılmış, girov qoyulacaq əmlaklar bazar dəyərinə uyğun olaraq qiymətləndirilmiş və sahibkarlara müvafiq sənədlər verilmişdir.

Daşınmaz əmlakın real bazar konyunkturasına uyğun olaraq qiymətləndirilməsi işlərinin mütəşəkkil və operativ şəkildə həyata keçirilməsi məqsədilə bazar qiyməti əsasında qiymətləndirilmiş əmlakların məlumat bankının yaradılması üçün xüsusi komissiya yaradılmışdır. Ötən dövr ərzində 105 əmlaka dair məlumat banka yerləşdirilmişdir. Hazırda bu iş davam etdirilir.

Vurğulanmışdır ki, 2015-ci ilin birinci yarısında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində əmlakla bağlı səyyar xidmət göstərilmiş, ümumilikdə, cari ilin ilk 6 ayı ərzində 32 kənddə səyyar xidmət göstərməklə 845 ədəd əmlakla bağlı müraciətlərə baxılaraq müvafiq sənədlər hazırlanmış və hüquq sahiblərinə verilmişdir.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq muxtar respublikanın Sədərək, Şərur, Kəngərli, Culfa, Ordubad, Babək rayonlarının və Naxçıvan şəhərinin ərazisində olan eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar müvafiq dövlət orqanlarının mütəxəssisləri ilə birlikdə komitə tərəfindən naturada müəyyən edilmişdir. Həmin ərazilər plana alınmış, onların eksplikasiyası tərtib olunmuş və xəritələşdirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilmişdir.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikanın nazirlik, komitə və təşkilatlarında cari ilin ilk 6 ayının yekunları müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasını Səhiyyə naziri Niyazi Novruzov açaraq məruzə etmişdir.*

Bildirilmişdir ki, əhalinin sağlamlığının qorunmasında tibb müəssisələrinin müasir tələblərə uyğun fəaliyyətini təmin etmək məqsədilə son illər ərzində 200-dən çox səhiyyə müəssisəsi müasir standartlara uyğun qurularaq istifadəyə verilmişdir. Bu tədbirlər cari ilin birinci yarısında da davam etdirilmiş, 8 tibb müəssisəsi, həmçinin Yoluxucu Xəstəliklər Mərkəzi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublika Xəstəxanasının əsaslı təmiri və 14 tibb müəssisəsinin tikintisi davam etdirilir.

Vurğulanmışdır ki, əhali rifahının davamlı yüksəlişi demoqrafik vəziyyətə təsirini göstərmiş, muxtar respublikada 2015-ci ilin 6 ayı ərzində 3046 uşaq doğulmuş, təbii artım 2060 nəfər təşkil etmişdir.

Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək üçün ucqar dağ kəndlərində yüksək səviyyəli səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları fəaliyyətini davam etdirmişdir. Yerlərdə əhalinin müayinə-müalicə işi təşkil edilmiş, qadın təhsil işçiləri arasında süd vəzi xərçənginin vaxtında aşkarlamaq üçün profilaktik kütləvi mammoqrafiya müayinələri, eyni zamanda ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə I-XI sinif şagirdləri arasında tuberkulin sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbəyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, psixiatrik, endokrinoloji müayinələri aparılmışdır.

Bu müddət ərzində Bakı şəhərindən və Türkiyə Respublikasından müxtəlif ixtisaslar üzrə yüksəkixtisaslı həkim kollektivləri muxtar respublikaya dəvət olunmuş və Naxçıvan həkimləri ilə birgə fəaliyyət göstərərək xeyli sayda əməliyyatlar həyata keçirmişlər.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Əsgər Əsgərov məruzə ilə çıxış etmişdir.*

Qeyd olunmuşdur ki, 2015-ci ilin birinci yarısında rayon Suvarma Sistemləri idarələri tərəfindən çay və selovlarda istiqamətləndirici bəndlərin salınması davam etdirilmiş, sahilbərkitmə işi aparılmış, 84,25 kilometr beton və torpaq kanallar, 11,5 kilometr suvarma, 45,16 kilometr içməli su, 12,78 kilometr kaptaj, 17,95 kilometr təzyiqli boru xətləri təmir olunmuş, 47,16 kilometr yeni suvarma, 17,8 kilometr yeni içməli su, 6,7 kilometr yeni təzyiqli boru və 1,5 kilometr yeni kaptaj xətləri çəkilmişdir.



Kəhrizlər İdarəsi tərəfindən 12 ədəd kəhrizdə təmir işləri aparılmış, 6 ədəd kəhrizdə təmir işləri başa çatdırılmış və 6 ədəd kəhrizdə bu işlər davam etdirilir.

Naxçıvan şəhərində "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində 1,89 kilometr şəhərdaxili kanalizasiya şəbəkəsi çəkilmiş, 50 ədəd ev kanalizasiya şəbəkəsinə qoşulmuş və 960 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılmışdır.

Bildirilmişdir ki, cari ilin birinci yarısında mövcud sututarlara 230,5 milyon kubmetr su yığılmışdır. Su istifadəçilərinə 170,97 milyon kubmetr suvarma suyu verilmiş, bunun müqabilində isə təkrar suvarma da nəzərə alınmaqla, 98 min 470 hektar əkin sahəsi suvarılmışdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

Naxçıvan Muxtar Respublikası Satınalmalar üzrə Dövlət Agentliyində keçirilən yığıncaqda agentliyin direktoru Qardaşxan Əliyev çıxış edərək bildirmişdir ki, 2015-ci ilin 6 ayı ərzində muxtar respublikanın müəssisə və təşkilatları tərəfindən 75 satınalma proseduru həyata keçirilmişdir. Müsabiqə yolu ilə keçirilmiş prosedurlar üzrə bağlanmış satınalma müqavilələrinin qiyməti 31 milyon 523 min 762 manat təşkil etmişdir və satınalma predmetlərinin ehtimal olunan 2,83 faizinə qənaət edilmişdir.

Ümumilikdə, 2015-ci ilin 6 ayı ərzindəki qənaətin 26303 manat və ya 2,86 faizi açıq tender üsulu ilə keçirilən satınalmalardan, 134157 manat və ya 14,60 faizi kotirovka sorğusu üsulu ilə keçirilən satınalmalardan, 758596 manat və ya 82,54 faizi isə təkliflər sorğusu üsulu ilə keçirilən satınalmalardan əldə olunmuşdur.

Qardaşxan Əliyev yığıncaq iştirakçılarının diqqətinə çatdırmışdır ki, cari ilin birinci yarısında dövlət vəsaiti hesabına 1894578 manat məbləğində ərzaq məhsulları, 475132 manat məbləğində dərman preparatları, 134240 manat məbləğində dəftərxana ləvazimatları və təsərrüfat malları, 147847 manat məbləğində əşya əmlakları, 1280800 manat məbləğində mal-material, hidrotexniki avadanlıqlar və əsas vəsaitlər, 273081 manat məbləğində qaz təsərrüfatında təmir işləri satın alınmış, 27318084 manat məbləğində əsaslı tikinti və yenidənqurma işləri həyata keçirilmiş, 75 satınalma müsabiqəsindən 919056 manat dövlət vəsaitinə qənaət edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən iclasda fondun sədri Rasim Hüseynov çıxış edərək bildirmişdir ki, 2015-ci ilin I yarımilində fond müvafiq dövlət orqanları ilə birlikdə işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına nəzarəti gücləndirmiş, 312 sahibkarlıq obyektində 161 yeni əmək müqaviləsi bağlanmış, 816 əmək müqaviləsində isə əməkhaqqı artırılmışdır. Bəhs olunan dövrdə fondun hesabına 25 milyon 552 min manat plana qarşı 30 milyon 454 min 740 manat vəsait daxil olmuş, proqnoz tapşırıqlara 119,2 faiz əməl edilmişdir.

Diqqətə çatdırılmışdır ki, məcburi dövlət sosial sığorta haqlarının onlayn ödəmə rejimində həyata keçirilməsi, vətəndaşların sosial sığorta və pensiya hüquqlarının qorunması məqsədilə onların həmin sistemdə fəal iştiraka cəlb edilməsi, müvafiq dövlət orqanları ilə birlikdə işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət edilməsi, avtomatlaşdırılmış pensiya təyinatı və sığorta-pensiya sistemində həyata keçirilən islahatlara bağlı muxtar respublika əhalisinin məlumatlandırılması sahəsində təbliğat və maarifləndirmə işləri gücləndirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

*Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsində keçirilən iclasda idarənin rəisi Fəxrəddin Cəfərov məruzə ilə çıxış edib.*

Bildirib ki, 2015-ci ilin iş planına əsasən, sənəd materiallarının tikilməsi və cildlənməsi sahəsi üzrə 4500 plana qarşı 6 ayda 3005 saxlama vahidi tikilərək qaydaya salınıb ki, bu da illik iş planının 66,8 faizi deməkdir. Sənədlərin bərpası maddəsi üzrə 5 min plana qarşı 6 ayda 3027 vərəqə bərpa edilib ki, bu da illik planın 60,5 faizini təşkil edir. Sənədlərin təsviri maddəsi üzrə 3 minə qarşı 3493 iş yerinə yetirilib. Bu isə illik planın 6 ayda yerinə yetirilməsi deməkdir.

Sənədlərin mövcudluğu və vəziyyətinin maddəsi üzrə illik plan 150 min işin mövcudluğuna qarşı yarımildə 85204 iş mövcudluq vəziyyəti yoxlanılaraq fondlarda, həmçinin 2 min plana qarşı 1800 foto və 200 kino sənədə qarşı 72 iş mövcudluğu yoxlanılaraq yeni alınan karton qutularda yerləşdirilib.



2015-ci ilin 6 ayında Sədərək, Kəngərli Şahbuz və Babək Rayon Dövlət arxivlərində kompleks yoxlamalar və ictimai baxış keçirilərək iş planlarının yerinə yetirilmə vəziyyəti, görülmüş işlərin keyfiyyəti və vətəndaşlar tərəfindən daxil olan sosial-hüquq xarakterli ərizə və sorğulara verilmiş 275-ə yaxın arxiv arayışları yoxlanılaraq təhlil edilib.

Fəxrəddin Cəfərov qeyd edib ki, rayon dövlət arxivlərində sənədlərin mövcudluğu vəziyyəti, eləcə də sənədlərin yenidən işlənməsi maddəsi üzrə işlər qənaətbəxş olmayıb. Tərtib edilmiş kompleks yoxlama arayışlarında sadalanan bu nöqsanlar yazılıb və rayon arxiv müdirlərinə bildirilib, tezliklə bunların aradan qaldırılması haqda göstərişlər verilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

*Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni icra başçısı İbrahim Məmmədov açaraq rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların fəaliyyətini təhlil etmiş, sənaye və kənd təsərrüfatı sahələrində, sahibkarlıq subyektlərində qazanılan uğurlar barədə danışmış, işdə buraxılan nöqsanları müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır.*

Qeyd olunmuşdur ki, 2015-ci ilin birinci yarısında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 36 milyon 671 min manatdan çox və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çox investisiya yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 2,3 faiz artaraq 34 milyon 262 min manatdan çox olmuşdur.

Bəhs olunan dövrdə əhaliyə 348 min 458 manatlıq poçt və rabitə xidməti göstərilmişdir. Bu dövr ərzində 556 mənzilə yeni telefon xətti çəkilmişdir.

Rayonda 8 ədəd müxtəlif güclü transformator yarımstansiyası quraşdırılmış, 25,1 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılmışdır. 48 yeni evə elektrik xətti çəkilmişdir. Lakin rayon Elektrik Şəbəkəsinin işində bəzi nöqsanlar hələ də qalmaqdadır. Rayonun müxtəlif ərazilərində primitiv üsulla çəkilmiş xətlərə, sayğacdankənar istifadəyə rast gəlinir, elektrik verilişində bəzən uzun fasilələr yaranır, enerji haqqının yığılması vaxtında və düzgün təşkil olunmur, reydlər keçirilmir.

Bildirilmişdir ki, qazdan qanunsuz istifadə hallarına qarşı mübarizə tədbirləri davam etdirilmiş, bu dövr ərzində qazdan qanunsuz istifadə hallarına görə 5 nəfər abonent 2 min 300 manat məbləğində cərimə olunmuşdur. Görülən tədbirlərə baxmayaraq, qaz nəzarətçilərinin zəif işinin nəticəsidir ki, qazdan qanunsuz istifadə halları baş verir, bəzi abonentlərin aylarla yığışıb qalan borclarının ödənilməsində çətinliklər yaranır.

İctimai iaşə obyektlərində, ticarət, məişət xidməti obyektlərində və satış bazarlarında sanitar-gigiyena qaydalarının tətbiqinə nəzarət məqsədilə rayonun kəndlərində və şəhər ərazisində Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən aparılmış yoxlamalar zamanı 93 akt tərtib edilmişdir.

2015-ci ilin birinci yarımilində vergilər və digər icbari ödənişlər üzrə 1 milyon 395 min manat proqnoz tapşırığa qarşı 1 milyon 507 min 500 manat vəsaitin büdcəyə ödənilməsi təmin edilərək proqnoz tapşırığa 108,1 faiz əməl edilmiş, büdcəyə proqnozda nəzərdə tutulandan 112 min 500 manat artıq vəsait cəlb olunmuşdur. Bütün tədiyə növləri üzrə vergi tapşırıqları yerinə yetirilmişdir.

Rayon Məşğulluq Mərkəzində 2015-ci ilin birinci yarısında 319 nəfər işaxtaran qeydiyyata alınmış, həmin vətəndaşlardan 262 nəfəri müxtəlif sahələrdə daimi işlə təmin olunmuşdur. 6 ay ərzində 1 əmək yarmarkası keçirilmiş, yarmarkada 67 işaxtaran vətəndaş daimi işlə, kənd təsərrüfatı məhsullarının becərilməsi ilə əlaqədar 20 nəfər müvəqqəti işlə təmin olunmuşdur. 36 işaxtaran vətəndaş peşə yönümünə cəlb edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***Ordubad Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni icra başçısı Elşad Məmmədov açmış və məruzə ilə çıxış etmişdir.***

Bildirmişdir ki, 2015-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 29 milyon 62 min 800 manat və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çox investisiya yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 2 faiz artaraq 26 milyon 851 min 200 manat təşkil etmişdir. Bəhs olunan dövrdə bir neçə obyekt istifadəyə verilmiş, hazırda tikinti-quruculuq tədbirləri müxtəlif ünvanlarda davam etdirilir.

Qeyd olunmuşdur ki, 2015-ci ilin ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan edilməsi torpaq mülkiyyətçilərinin üzərinə mühüm vəzifələr qoymuşdur. Rayonda bu vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 2150 hektar sahədə taxıl əkini aparılmışdır ki, bunun da 1308 hektarı buğda, 842 hektarı arpa sahələri olmuşdur. Əkin sahələrindən 5798 ton məhsul tədarük edilmişdir. 574 hektarda kartof, 672 hektarda tərəvəz əkilmiş, bu sahələrdə də bol məhsul yetişdirilmişdir.

İcra başçısı xidmət sahələrində görülmüş işlərdən də danışaraq bildirmişdir ki, bəhs olunan dövrdə Ordubad rayonu üzrə informasiya və rabitə xidmətlərinin həcmi 1568,3 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövründəki xidmətin həcmi ilə müqayisədə 0,8 faiz çoxdur.

Müşavirədə hesabat dövrü ərzində işdə buraxılmış nöqsanlar barədə ətraflı təhlillər aparılmış, həmin nöqsanların aradan qaldırılması yolları müzakirə edilmişdir.

Məruzə ətrafında rayon Maliyyə Şöbəsinin müdiri Bəxtiyar Əsgərovun, Statistika İdarəsinin rəisi Namiq Babayevin, Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru Rəşadət Orucovun çıxışları olmuşdur.

* * *

*Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsində cari ilin birinci yarısına dair hesabat iclası keçirilib.*

İdarə rəisi Vüqar Babayev məruzəsində dövlət-din münasibətlərinin tənzimlənməsindən və qarşıya qoyulan vəzifələrdən danışıb.

Qeyd edilib ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsi milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində fəaliyyətini genişləndirib. Bu məqsədlə də muxtar respublikanın rayonlarında dini icma sədrləri, eləcə də fəal dindarların iştirakı ilə "Dövlət-din münasibətləri və maarifləndirmə işi" mövzusunda iclaslar keçirilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsi muxtar respublika qazisi ilə birlikdə vaxtaşırı rayon və kənd məscidlərində olaraq yerlərdə yas mərasimlərinin keçirilməsi, din xadimlərinin vahid geyim formasının təşkili, dini və məzhəb ayrı-seçkiliyi zəminində baş verə biləcək halların vaxtında qarşısının alınması ilə bağlı söhbətlər aparılıb, bu istiqamətdə yerli dindarlara müvafiq təlimatlar verilib. Dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də icmaların fəaliyyətlərinə ciddi nəzarətin təşkil olunması məqsədilə hər ay Naxçıvan şəhərindəki Heydər məscidində icma rəhbərləri ilə iclaslar keçirilib, onlara dini icmaların fəaliyyətlərini təkcə dini məsələlər ətrafında deyil, həm də Vətənimiz, dövlətimiz və cəmiyyətimiz üçün ümummilli maraqlar müstəvisində qurmaları istiqamətində tapşırıqlar verilib.

Bildirilib ki, hesabat dövründə maarifləndirmə işinin təşkili məqsədilə mütəmadi olaraq yerli kütləvi informasiya vasitələrində verilişlər hazırlanıb, İslam dininin əsaslarına dair məqalələr hazırlanaraq icmalara paylanılıb.

**Xəbərlər şöbəsi**

1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

# Ana dilimiz ən ali milli dəyərimizdir

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.***

Hər hansı bir xalqın dilinin mükəmməl şəkildə formalaşması, onun ünsiyyət vasitəsinə çevrilməsi uzun tarixi prosesin nəticəsində mümkündür. Azərbaycan xalqı ana dilimizin saflığını qorumuş, bu dildə əfsanələr, rəvayətlər, dastanlar yaradaraq bu günə çatdırmışdır. Əsrlər boyu analarımız həzin laylalarını bu dildə söyləmiş, nənələrimiz bizə bu dildə şirin nağıllar danışmışlar. Bu dildə zəngin xalq yaradıcılığı nümunələri – dastanlar, nağıllar, bayatılar, rəvayətlər, əfsanələr, atalar sözləri, mahnılar yaranmış, min illərin dil çeşməsində durularaq və sınaqlardan keçərək günümüzədək gəlib çıxmışdır. Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir, Məmməd Araz və başqa görkəmli söz ustaları bu dildə ölməz sənət nümunələri yaratmışlar.




Dilimizin saflığı və yaşaması uğrunda mübarizə XIX əsrin əvvəllərindən XX əsrin ortalarına qədər davam etsə də, onun dövlət dili səviyyəsinə qaldırılması, qorunması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan dilini milli varlığın əsası kimi həmişə diqqət mərkəzində saxlamış, 1978-ci ildə Azərbaycan dilinin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Həmin dövrdə Azərbaycan dilinin qrammatik quruluşunun elmi şəkildə öyrənilməsinə başlanılmış, dilçi alimlərin fəaliyyəti üçün geniş imkanlar açılmış, elmi-tədqiqat materialları və kitablar nəşr olunmuşdur. Azərbaycan dilinə və ümumiyyətlə, Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı ölkəmizin keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, ötən əsrdə SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə "Türkologiya" jurnalı məhz Bakıda nəşr edilirdi.

***"Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi bizim nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir"***, – deyən dahi rəhbər siyasi hakimiyyətə ikinci qayıdışından sonra da ana dilimizin qorunması və inkişafı istiqamətində mühüm qərarlar qəbul etmiş, Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi öz təsbitini tapmışdır. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanı, eləcə də 2003-cü il 2 yanvar tarixli Fərmanı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu mühüm dövlət sənədləridir. Belə ki, ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə ölkəmizdə kiril əlifbasından istifadəyə son qoyulmuş, latın qrafikasının tətbiqi ilə bağlı bir sıra işlər həyata keçirilmişdir. Bu tarixi sənədlər əsl milli təəssübkeşlik qətiyyəti olmaqla, həm də Azərbaycanda dilçilik elminin nəzəriyyə və praktikasının inkişafını, ana dilimizin ümumxalq dili kimi inkişaf etməsini təmin etmişdir.

Ümummilli liderin ideyalarını bu gün layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi doğma dilimizə və əlifbamıza dərin ehtiramın ifadəsidir. ***"Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir"***, – deyən ölkə başçısının 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Dövlət başçısının sonrakı sərəncamları əsasında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Dövlət proqramında Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyətinin, terminologiyanın inkişafına, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri öz əksini tapmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında da dövlət dil siyasəti uğurla həyata keçirilir. Azərbaycanda latın qrafikasına keçiddən sonra muxtar respublikanın kitabxanalarına 2 milyondan artıq kitab verilmiş, Naxçıvan şəhərində "Ana dili" abidəsi ucaldılmışdır. Son illər muxtar respublikada dərc olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", 3 cilddə "Naxçıvan Folkloru Antologiyası" və xeyli sayda digər nəşrlər tariximiz, mədəniyyətimizlə yanaşı, dilimizin də inkişafına mühüm töhfədir.

Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət dil siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Bu gün hamımızdan Azərbaycan dilinə münasibətdə, dilimizin saflığının qorunmasında vətəndaşlıq mövqeyi tələb olunur. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***"İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımızın bu babalardan miras qalan bu ən qiymətli milli sərvətini hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".***

**"Şərq qapısı"**

---

2 avqust Azərbaycan Kinosu Günüdür

# Azərbaycan kinosu böyük inkişaf yolu keçmişdir

***Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan kinosu gününün təsis edilməsi haqqında" 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən, hər il 2 avqust ölkəmizdə Azərbaycan Kinosu Günü kimi qeyd olunur.***

Azərbaycanın milli kino sənəti həmişə xalqa yaxın olmuş, onun şən və sevincli günlərini, ağrı və acılarını ekrana daşıyaraq sevilən bir sənətə çevrilmişdir. Kino sənətimiz yarandığı ilk illərdən xalqımızın həyatına, onun tarixinə, adət-ənənələrinə və milli dəyərlərinə bağlı olmuşdur. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***"Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur".***




XX əsrin əvvəllərində dünyanın bir sıra ölkələrində tammetrajlı filmlər yaranmağa başlandı. Təbii ki, bu dövrdə ölkəmizdəki ictimai-siyasi və mədəni şərait kino sənətinin formalaşmasına zəmin yaratdı. Yeni ziyalılar nəslinin yetişməsi, mətbuatın inkişafı, ilk milli operamızın yazılması, professional teatrın böyük simalarının yaradıcılığı kino sənətinin inkişafına təkan verdi. Azərbaycan yazıçısı İbrahim bəy Musabəyovun dövrün həyat hadisələrini və lövhələrini əks etdirən, janr etibarilə melodram olan "Neft və milyonlar səltənətində" povesti əsasında Azərbaycanda ilk tammetrajlı film çəkilməyə başlandı. Filmin təbiət mənzərələri Bakıda, Xəzər sahillərində, Abşeron kəndlərində, pavilyonla bağlı səhnələr isə Tiflisdə çəkilmişdir. Film XX əsrin əvvəllərində neft Bakısının həyatını, Azərbaycan milyonçularının məişətini, əxlaqını, bir parça çörək üçün neft mədənlərində ən ağır şəraitdə işləyib yaşayan fəhlələrin güzəranını ekranda canlandırmışdır.

Azərbaycanın ilk tammetrajlı bədii filmi olan "Neft və milyonlar səltənətində" kinosuna 1916-cı il may ayının 14-də ilk baxış olmuşdur. Filmin 2-ci seriyası isə mayın 27-də nümayiş etdirilmişdir. Film ilk dəfə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin pasajında "Fransız Elektrobioqrafi"nda göstərilmişdir. Kino Bakıdan başqa, Qafqazın və Orta Asiyanın bir çox şəhərlərində də nümayiş etdirilmişdir.

Beləliklə, "Neft və milyonlar səltənətində" filmi ilk bədii film kimi kino tariximizə daxil olmuşdur. Avropa və Asiyanın bir sıra ölkələrinin ilk tammetrajlı filmlərinin keçən əsrin 30-50-ci illərində yarandığını nəzərə alsaq, bu filmi kinomuzun mədəni səviyyəsinin yüksək göstəricisi hesab etmək olar. Filmin çəkilişindən 65 il sonra kinematoqrafçılarımız bu əsərə yenidən müraciət etmiş və 1980-ci ildə "Qızıl uçurum" filmini ekrana gətirmişlər. Məşhur povestin motivlərinin əsasında çəkilmiş bu filmə görə milli kino ustalarımız o zaman ümumittifaq festivallarında mükafata layiq görülmüşlər.

Azərbaycan kino sənəti ötən əsrin əvvəllərindən başlayaraq özünəməxsus inkişaf dövrü keçmiş, zəngin yaradıcılıq imkanları ilə ictimaiyyətin rəğbətini qazanmışdır. 1924-cü ildə "Qız qalası əfsanəsi" bədii filmi ekranlara çıxmışdır. Azərbaycanda ilk səsli kinonun istehsalına isə 1935-ci ildə "Mavi dənizin sahilində" bədii filmi ilə başlanılmışdır. Səsli kinonun yaranması ilə sənədli kinomuzun da yaradıcı imkanları genişlənmişdir. 1945-ci ildə yaradılan və ekran sənətimizin qızıl fonduna daxil olan "Arşın mal alan" filmindən sonra Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənmişdir. 1956-cı ildə kinomuzda daha bir keyfiyyət dəyişikliyi baş vermiş, ilk rəngli bədii film olan "O olmasın, bu olsun" filmi çəkilmişdir.

İncəsənətimizin hamisi olan ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin birinci dövründə milli kinonun inkişafına qayğı daha da artmışdır. Həmin dövrdən başlayaraq Azərbaycan kinematoqrafiyasının imkanları genişlənmiş və bu sahədə ciddi nailiyyətlər əldə edilmişdir. Kinomuzun yeni inkişaf mərhələləri yaşadığı həmin illərdə ssenarist, rejissor, operator, rəssam kadrlarının bir neçə nəsli yetişmiş və milli özünəməxsusluğu ilə seçilən koloritli, parlaq ekran əsərləri yaradılmışdır.

1970-1980-ci illər Azərbaycan kinosunun əsl inkişaf dövrüdür. Bu illər ərzində kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən, mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər yaradılmış, görkəmli əsərlər ekranlaşdırılmış, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilmişdir. Həmin illərdə Azərbaycanda 110 bədii, 500 sənədli və elmi-kütləvi, eləcə də 44 cizgi filmi istehsal olunmuşdur. "Bir cənub şəhərində", "Bizim Cəbiş müəllim", "Dəli Kür", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Nəsimi", "Dədə Qorqud", "Babək", "Nizami" və başqa bədii filmlərimiz bu illərdə çəkilib. Bu filmlərimizi fərqləndirən əsas cəhətlərdən biri də xalqımızın həyatına, başlıcası isə çoxəsrlik tariximizə, adət-ənənələrimizə, milli dəyərlərimizə daha dərindən nüfuz etməsində idi. Sovet imperiyası dövründə bu, nə qədər çətin olsa da, ulu öndərin təşəbbüsü ilə milli kinomuzun qızıl fondu sayılan bu cür sənət nümunələri yaradılmışdır. Hətta bir sıra filmlərin yaranmasında ulu öndərin şəxsi təşəbbüsünü xüsusi qeyd etmək lazımdır. Onun şəxsi nüfuzu hesabına "Uzaq sahillərdə", "İstintaq", "Bir cənub şəhərində", "Nəsimi", "Babək" bədii filmləri sovet senzurasından keçə bilmişdir.

Müstəqillik illərində milli kinomuza xüsusi diqqət yönəldilməsi də məhz ulu öndərin adı ilə bağlıdır. Həmin dövrdə məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Dahi şəxsiyyətin 1998-ci il 19 avqust tarixli Fərmanı ilə "Kinematoqrafiya haqqında" Qanun qəbul edilmiş və bununla da, dövlət kinematoqrafiyasının hüquqi bazası yaradılmışdır. 1996-cı ildə isə Azərbaycan Dövlət Film Fondu yaradılmış, filmlərin qorunması təmin edilmişdir.



Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Ölkə başçısı 2008-ci il 4 avqust tarixli Sərəncamla "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Proqramda kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur. Artıq ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan kino sənətinin inkişafında Naxçıvan torpağının yetirdiyi sənətkarlar Qəmər Salamzadə, Rza Təhmasib, Həbib İsmayılov, Məmmədhüseyn Təhmasib, Şamil Mahmudbəyov, Ramiz Mirişli, Elxan Qasımov və başqalarının dəyərli xidmətləri olmuşdur. Unudulmaz filmlərimizdən olan "Nəsimi", "Dədə Qorqud", "Babək", "Əzablı yollar", "Gümüşgöl əfsanəsi", "Doğma sahillər" və başqa ekran əsərlərinin müəyyən hissələri və natura çəkilişləri Naxçıvan Muxtar Respublikasında aparılmışdır.

Bu gün də Naxçıvan Muxtar Respublikasında kino sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində Naxçıvan şəhərində "Gənclik" Mərkəzi yaradılmış, Şərurda "Bahar", Şahbuzda "Araz" kinoteatrları, Ordubad və Babək Rayon Mədəniyyət evləri yenidən qurulmuş, ən müasir videoproyektorlarla, lazımi texniki avadanlıqlarla təchiz olunmuşdur. Muxtar respublikamızda Dövlət Film Fondunun fəaliyyət göstərməsi də bu sahəyə göstərilən qayğının daha bir nümunəsidir. Hazırda burada 4500-dən çox film saxlanılır. Azərbaycan filmləri ilə yanaşı, burada müxtəlif ölkələrdə istehsal olunmuş bədii, sənədli filmlər, cizgi filmləri, qısametrajlı, elmi-kütləvi, Azərbaycan dilinə dublyaj edilmiş filmlər də mühafizə olunur. Eyni zamanda fondda 100-dən çox Azərbaycan filminin ssenarisi ilə tanış olmaq imkanı da mövcuddur.

*Azərbaycan kinosu zamanın böyük sınaqlarından şərəflə çıxaraq xalqa xidmət yolunu tutmuş və sevilən sənət sahəsinə çevrilmişdir. Filmlərimizə bu gün böyük maraq göstərilir, istər yaşlı nəsil, istərsə də gənclər tariximizin və mədəniyyətimizin ekran incilərini sevərək izləyirlər.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Sofya Həsən qızı Hüseynova



Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Sofya Həsən qızı Hüseynova 2015-ci il iyulun 30-da vəfat etmişdir.

Sofya Hüseynova 1926-cı il fevralın 17-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi Naxçıvanda bitirmişdir. Məktəbdə oxuduğu dövrlərdən teatra maraq göstərmiş, uşaq rollarında səhnəyə çıxmışdır. 1942-2003-cü illərdə isə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışmışdır.

Sofya Hüseynovanın Naxçıvan teatrının formalaşması və inkişafında mühüm xidmətləri vardır. Onun yaratdığı Gülçöhrə (“Arşın mal alan”), Zalxa (“Toy”), Ana (“Ana”), Xuraman (“Vaqif”), Sara (“Solğun çiçəklər”) kimi müxtəlif xarakterli səhnə obrazları Naxçıvan teatrının salnaməsinə əbədi daxil olmuşdur.

Əməyi yüksək qiymətləndirilən Sofya Hüseynova 1982-ci ildə Azərbaycan Respublikasının “Xalq artisti” fəxri adına layiq görülmüş, 1999-cu ildə isə “Şöhrət” ordeni ilə təltif olunmuşdur. Sofya Hüseynova 2002-ci ildən Prezident təqaüdçüsü idi.

Ömrünü Naxçıvan teatrının inkişafına həsr edən Sofya Həsən qızı Hüseynovanın xatirəsi unudulmayacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti**

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi**

Yeni nəşrlər

## Naxçıvan mətbuat tarixinə dair qiymətli araşdırma ingilis dilində nəşr edilib




*Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyidin “Naxçıvanda mətbuatın inkişaf tarixi (“Şərq qapısı” qəzetinin materialları əsasında)” adlı kitabı nəşr olunub. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çap edilən kitab ingilis dilindədir. Kitabın tərcüməçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Fiyalə Abdullayevadır.*

XX əsrin əvvəllərində Naxçıvanda mətbuatın yaranmasını şərtləndirən başlıca amillər, “Kommunist”, “Naxrespublika”, “Cavanlar həyatı”, “Füqərə səsi” kimi qəzetlərin nəşri tarixi kitabın başlıca tədqiqat obyektidir. Azərbaycanda mətbu nəşrlər sırasında az qala bir əsrlik tarixdə fasiləsiz nəşr olunan yeganə qəzet kimi “Şərq qapısı”nın fəaliyyətə başlaması ilə yeni mərhələyə qədəm qoyan mətbuatın keçdiyi şərəfli yol kitabın ikinci fəslinin aparıcı qayəsini təşkil edir. Kitabda eyni zamanda ilk dəfə olaraq XX əsrin 30-cu illərində Azərbaycanın tanınmış ədəbi simaları Mirzə İbrahimov və Əli Vəliyevin fəaliyyətinin Naxçıvan dövrü araşdırılır. 1933-cü ildə Naxçıvanda Mirzə İbrahimovun redaktorluğu ilə nəşr olunan “Ədəbiyyat” və Maşın-Traktor Stansiyasının orqanı olan “Sürət” qəzetlərinin nəşri zərurəti, bu haqda müxtəlif mənbələrdəki faktlar ilk dəfə olaraq sistemləşdirilib və tədqiqata cəlb olunub.

Dahi rəhbər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk mərhələsində Naxçıvanda mətbuatın inkişaf meyilləri, “Şərq qapısı” qəzetinin 50 və 60 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması, qəzetin yaradıcılıq xüsusiyyətləri növbəti fəsillərdə elmi təhlil süzgəcindən keçirilir.

Kitabda 1990-cı ilin Qanlı Yanvar günlərində Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə Azərbaycan SSR-in tərkibindən çıxmasını elan edən Naxçıvan Respublikasının ilk müstəqil mətbu orqanı kimi 8 nömrəsi işıq üzü görən “Şərq qapısı”nın şəxsi arxivlərdən toplanmış nömrələri tədqiqata cəlb edilib, qəzet səhifələrindəki tarixi faktlar önə çəkilib.

Müstəqillik illərində yeni forma və məzmun əldə edən, müstəqil Azərbaycan mətbuatının bayraqdarı olan “Şərq qapısı” qəzetinin dövlət və KİV münasibətlərinin tənzimlənməsindəki rolu da araşdırılan mövzular sırasındadır. Xüsusən ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətində “Şərq qapısı” qəzetinin yeri və rolu müəyyən olunub, həmin dövr ayrıca tədqiqata cəlb edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2000-ci ildə Naxçıvanda nəşr olunan dövlət mətbuat orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri haqqında imzaladığı sərəncamdan sonra mətbu orqanlarının fəaliyyəti daha da genişlənib. Ali Məclis Sədrinin jurnalistlərlə keçirdiyi görüşlər, bu sahənin inkişafı ilə bağlı görülən tədbirlər, “Şərq qapısı” qəzeti redaksiyası üçün tikilib istifadəyə verilən inzibati bina və ən son texniki avadanlıqlarla təchiz olunmuş mətbəənin fəaliyyəti də kitabda təqdim olunan yeniliklər sırasındadır.

Kitabın ingilis dilində nəşr olunmasının əsas səbəbi Naxçıvanda mətbuatın yaranması və keçdiyi tarixi yol, bu sahənin inkişafı ilə bağlı həyata keçirilən islahatlar, dövlət və KİV münasibətlərinin qarşılıqlı inteqrasiyasını dünya oxucularına təqdim etmək, eyni zamanda ermənilərin Naxçıvana qarşı ərazi iddialarına mətbuatın dili ilə cavab verməkdir.

**Şəhla ŞİRƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*



## Uşaq-gənclər idman məktəbində milli idman növünə maraq artırılır

*Muxtar respublikanın kompleks inkişafı idman sahəsini də əhatə edib.*

Bir neçə ildir ki, möhtəşəm idman yarışlarına ev sahibliyi edən Naxçıvan şəhərində, həmçinin rayon mərkəzlərində həyata vəsiqə alan yeni idman obyektləri, həmin obyektlərin maddi-texniki bazalarının gücləndirilməsi həm idmana marağı artırmaqda, həm də yeni qələbələr qazanılmasında başlıca amildir.



Öz işini günün tələbləri səviyyəsində quran qurumlardan biri də Naxçıvan şəhərində fəaliyyət göstərən Uşaq-gənclər idman məktəbidir. Məktəb gənclərin yay tətilini səmərəli keçirməsi üçün tədbirlər planı hazırlayıb və onları həyata keçirməkdədir.

Keçirilən yarışların mahiyyətini, onların verdiyi nəticələri və gəncləri idmana cəlb etmək üçün hansı tədbirlərin görüləcəyini öyrənmək üçün məktəbin direktoru, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərovla söhbətləşdik. Faiq müəllim bildirdi ki, Uşaq-gənclər idman məktəbində idmanın sərbəst, yunan-Roma güləşi, cüdo və sambo növləri üzrə məşqlər keçirilir. Hazırda bu məşqlər 16 müəllim tərəfindən aparılır və məktəbimizə müraciət edənlərin sayı da gündən-günə artmaqdadır. Həftənin 6 günü daxil olmaqla məşqlərdə ayrı-ayrı növlər üzrə, ümumilikdə, 500-ə yaxın uşaq, yeniyetmə və gənc iştirak edir. Məqsəd isə muxtar respublikada bu idman növlərinə olan marağı artırmaq, onları məktəblilər, həmçinin gənclər arasında kütləvi hala gətirmək, yarışlarda uğur əldə edən idmançıları milli komandaya dəvət etməkdir. 2015-ci ilin birinci yarımili ərzində uşaq, yeniyetmə və gənclərin yay tətilinin səmərəli təşkili, asudə vaxtlarından düzgün istifadə etmələri üçün nəzərdə tutulan bir sıra tədbirlər reallaşdırılıb.

Həmin yarışlara nəzər yetirdikdə, məktəbin fəaliyyət dairəsinin genişliyini görə bilərik. Qarşıdakı aylarda məktəb bu ənənəsini davam etdirəcək. Faiq İsgəndərovu dinləyək: “Avqust və sentyabr aylarında sərbəst, eləcə də yunan-Roma güləşi üzrə yeniyetmələr və gənclər arasında turnirlər, yarışlar keçiriləcək. Artıq ənənə halını alan bu yarışlarda muxtar respublikanın şəhər və rayonlarından olan güləşçilər mübarizə aparacaqlar. Bununla yanaşı, növbəti aylarda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, bir çox yarışlar, turnirlər olacaq. Həmçinin məktəbin daxili birinciliklərі də keçiriləcəkdir”.

Sonda məktəbin direktoru yaradılan şəraitə görə minnətdarlığını bildirdi: “Bu gün muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük nailiyyətlər qazanılıb. İdmana olan diqqət və qayğı nəticəsində Naxçıvan ölkənin idman mərkəzlərindən birinə çevrilib. Bütün bunlar muxtar respublika rəhbərinin uşaq, yeniyetmə və gənclərimizin sağlam ruhda böyüməsinə, onların vətənpərvər kimi formalaşmasına xüsusi diqqətlə yanaşdığını sübut edir. Bizə göstərilən bu etimadın nəticəsi olaraq idmançılarımız böyük uğurlar qazanacaq”.

**Ceyhun MƏMMƏDOV**

## Aztəminatlı ailələrə başçəkmələr davam etdirilir

***Son illər muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı sosialyönümlü tədbirlərin uğurla davam etdirilməsi ilə yanaşı, ailələrin sosial rifahının yaxşılaşmasına xidmət edən çoxsaylı tədbirlərin həyata keçirilməsi ilə əlamətdardır. Bu, hər bir ailənin yaşayış səviyyəsinin yüksəldilməsinə, xüsusən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.***

Aztəminatlı ailələrə xüsusi diqqət və qayğı göstərmək, onlara maddi və mənəvi dəstək olmaq dövlətin sosial siyasətinin mühüm tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən, aztəminatlı ailələrə baş çəkilməsi, onların zəruri ehtiyaclarının ödənilməsi muxtar respublika təcrübəsi kimi təqdirəlayiqdir. Son iki ildə bu qəbildən olan 200-dən artıq ailəyə dəstək göstərilmişdir.

İyulun 31-də Şərur rayonunun Məmmədsabir kəndində yaşayan aztəminatlı Əliyevlər ailəsinə baş çəkilib. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları ailənin yaşayış şəraiti ilə maraqlanmış, ailə üzvlərini tibbi müayinədən keçirmiş, onlara ərzaq payı vermişlər.

Ailənin üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Televiziya və Radio Şurası tərəfindən seminar keçirilib

***İyulun 3-də Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən muxtar respublikanın teleradio əməkdaşlarının iştirakı ilə “Kütləvi informasiya vasitələrində hərbi proqram və materialların hazırlanma qaydaları və informasiya təhlükəsizliyi” mövzusunda seminar keçirib.***

Seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Fərasət Əsədullasoy açıb.

Seminarda Əlahiddə Ümumqoşun Ordunun Mənəvi-psixoloji təminat şöbəsinin rəisi, polkovnik Mirqiyas Rüstəmov gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində və eləcə də Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında hərbi proqram və materialların hazırlanmasının vacibliyindən, proqram və materialların hazırlanması prosesində teleradio əməkdaşlarının diqqət çəkməli olduqları qaydalardan danışıb.

O deyib ki, kütləvi informasiya vasitələrinin nümayəndələri ilə birgə hərbi proqram və materialların hazırlanması prosesində mövcud qaydaların tətbiqi artıq öz müsbət nəticələrini verməkdədir. Bunun nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordunun tabeliyindəki hissə və bölmələrdən kənara informasiya təhlükəsizliyi qaydalarına zidd olan, əməliyyat şəraitinə mənfi təsir edən məlumatlar yayılmır.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının şöbə müdiri Abil Orucəliyev “Hərbi informasiya təhlükəsizliyinin hüquqi tənzimlənməsi” mövzusunda məruzə edərək qanunvericilikdə informasiya fəaliyyətinin hüquqi qaydaları və kütləvi informasiya vasitələrinin hərbi informasiya təhlükəsizliyi sahəsində əməl etmələri vacib olan normativ-hüquqi aktlar barəsində danışıb.

Seminarda Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının baş məsləhətçisi Ləman Nəcəfzadə “Hərbi informasiya təhlükəsizliyinin qorunmasında teleradioların rolu və jurnalistlərin vəzifələri” mövzusunda çıxış edib.

Daha sonra mövzu ətrafında müzakirələr aparılıb, seminar iştirakçılarının sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Yunusov Əli Rafiq oğlunun adına verilmiş zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor əvəzi: MUXTAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 582